# Radionun 100, televiziyanın 70 illik yubileyinə gənc alimin töhfəsi




**Yola saldığımız 2025-ci il BDU-nun Jurnalistika fakültəsinin Multimedia və elektron Kommunikasiya kafedrası üçün çox uğurlu oldu. Kafedramızda bir neçə dərslik, dərs vəsaitləri, monoqrafiya çap edilib tələbələrimizin ixtiyarına verildi.**

Məsələn, filologiya elmləri doktoru, professor Allahverdi Məmmədlinin "Azərbaycançılıq mollanəsrəddinçiliyin milli ideya konteksində" (monoqrafiya), dosentlər Aynur Nəsirova və Xatirə Hüseynovanın "Radio jurnalistikası" (dərsliyi), dosent Sevinc Məmmədova və bu sətirlərin müəllifinin "Radioda praktik iş" (dərs vəsaiti), filologiya üzrə fəlsəfə doktoru Arzu İsayevanın "Telejurnalistika və data analizi" (dərs vəsaiti) yalnız Jurnalistika fakültəsinin tələbələri üçün deyil, həm də bu sahədə çalışan mütəxəssislər üçün də maraqlı, dəyərli mənbə olacağına inanıram. Təbii kafedranın bu uğurlarında daha çox Multimedia və elektron Kommunikasiya kafedrasının müdiri, filologiya elmləri doktoru, professor, tanınmış telejurnalist Qulu Məhərrəmlinin əməyi var.

Qarşımda Azərbaycanda radionun müntəzəm yayıma başlanmasının 100, televiziya yayımının isə 70 illik yubileylərinə həsr olunan dərs vəsaiti var. Vəsaitin müəllifi kafedramızın gənc alimi, filologiya üzrə fəlsəfə doktoru, Arzu İsayevadır. BDU-nun Nəşr evinin çapa hazırladığı əsərin elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Sevinc Məmmədova, rəyçiləri isə filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli, filologiya üzrə fəlsəfə doktoru, dosent Aynurə Hüseynova və müəllim Anzulə Cəfərovadır. Bu dərs vəsaiti ali məktəblərin bakalavr pilləsində tədris edilən "Telejurnalistika və data analiz" fənninin proqramına uyğun olaraq hazırlanıb. Həm nəzəri, həm də təcrübi səciyyə daşıyan dərs vəsaiti bu gün nəinki müasir televiziya və radio jurnalistikasında, bütövlükdə jurnalistika və multimedia yaradıcılığında çox mühüm yeri olan data jurnalistikasına həsr edilib. Gənc alim A.İsayeva əsərində datanın bu gün jurnalistikadakı mahiyyətini məharətlə ön plana çəkə bilib.

"Telejurnalistika və data analiz" adlı əsərin "Giriş" hissəsində müəllif "Data telejurnalistikanı necə dəyişir" sualını ətraflı və məzmunlu cavablandırır. Müəllif datanın telejurnalistika aləmindəki dəyişikliklərinə "sürətli data dövriyyəsi" konsepsiyası çərçivəsindən yanaşır. Bu geniş prosesdə data analiz televiziyanın məlumat mənbəyi və jurnalist-reportyor işinin vacib istiqaməti kimi nəzərdən keçirilir və açıqlanır. Yəni əsərdə "datanın toplanmasından saxlanmasına, işlənib təmizlənməsindən analitik şərhinə, vizuallaşdırmadan çoxkanallı paylanmasına" kimi mühüm olan mərhələlər şərh edilir. Elə müəllifin də əsas məqsədi "televiziya kontekstində data jurnalistikasının nəzəri əsaslarını praktik tələblərlə birləşdirən" anlaşıqlı çərçivə şəklində təqdim etməkdir və buna nail də olub.

Əsərlə tanışlıq zamanı bir daha əmin oldum ki, data jurnalistikası bütün, xüsusən geniş ictimai maraq doğuran, diqqəti cəlb edən mövzuların effektiv şəkildə cəmiyyətə çatdırılmasında körpü funksiyasını həyata keçirir. Elə data vizuallaşdırmanın əsas məqsədi də budur. O, çox geniş məlumatları "vizual təsvirlər vasitəsilə" sadələşdirərək, insanların qavraya biləcəyi formada cəmiyyətə təqdim edir. A.İsayeva məhz buna görə də data jurnalistikasını "TV-də yeni trend" kimi təqdim edir. Əslində, data məlumatları bu gün yalnız TV-də deyil, çağdaş jurnalistikanın bütün sahələrində əhəmiyyətli yer tutur. TV sistemində isə datanın yeri və rolu daha çox qabarıq özünü əks etdirir. Müəllif də haqlı olaraq əsərində datanın yalnız TV də deyil, ümumiyyətlə, müasir mediada yeri, rolu, əhəmiyyəti, onun özəllikləri, prinsipləri və s. haqqında məlumat verir. Arzu xanım data jurnalistikasını klassik jurnalistika modellərindən fərqləndirən başlıca cəhətləri də əsərində qeyd etməyi unutmayıb. Müəllif qeyd edirdi ki, "datanı sadəcə informasiyaya çatmaq vasitəsi kimi deyil, eyni zamanda xəbərin strukturunu və məzmun çərçivəsini formalaşdıran əsaslı bir element kimi qəbul etməsidir".

Həqiqətən data jurnalistikası yalnız mövcud texnoloji vasitələrlə məhdudlaşmır, eyni zamanda davamlı olaraq inkişaf edən "texnologiyalarla sinxron şəkildə transformasiyaya uğrayan dinamik bir sahədir". Üç fəslə bölünən dərs vəsaitinin məzmunu kimi, quruluşu da diqqəti cəlb edir. Əsərdə hər yarım fəslin sonunda mövzunun qısa yekunu, mövzuya aid suallar, tapşırıqlar və istifadə edilən ədəbiyyat siyahısı verilib. Bu çox yaxşı haldır. Çünki tələbə mövzuya aid ədəbiyyatı əldə etmək üçün bu zaman çətinlik çəkmir. Hər mövzunun qısa yekun nəticəsində mövzu haqqında müəllif qənaətə gəldiyi nəticələri qısaca olaraq şərh edir və aydınlaşdırır. Sadə, aydın şəkildə yazılan dərs vəsaitində data haqqında dünya alimlərinin elmi-nəzəri fikirlərinə, təcrübələrinə də geniş yer verilib. Bunlarla yanaşı gənc alim əsərinin sonunda dataya aid bəzi terminlərin açıqlamasını da verib.

"Data jurnalistikası TV-də yeni trend kimi" adlandırdığı birinci fəsildə televiziyanın tarixinə, inkişaf mərhələlərinə qısa da olsa nəzər salaraq əsas diqqətini televiziyanın inkişaf səviyyəsinə təsir edən amillərə yönəldib. Televiziyanın ictimai müstəviyə qalxmasında inkişaf etmiş ölkələrin yerini müəyyənləşdirmək üçün "Televiziya texnologiyasının inkişaf dinamikası" adlı cədvəl də tərtib edib. Gənc alim burada həm də televiziyanın tarixi inkişafını yalnız texnoloji tərəqqi ilə izah etmir, həm də bu tərəqqidə paralel olaraq "yayımçılıq modellərində ciddi struktur" dəyişikliklərinin olmasını ön plana çıxarır. Bu zaman Amerika Birləşmiş Ştatlarının və Böyük Britaniyanın təcrübələrinə istinad edərək "bu sahədə yaranmış ən xarakterik nümunələrdən biri şübhəsiz, Böyük Britaniyanın" olduğunu qeyd edir. İctimai yayımçılığın müstəqil və davamlı olmasında ən mühüm faktor kimi, "maliyyə məsələsini" qeyd edən müəllif "Müasir televiziya yayımçılığının əsas özəllikləri" adlandırdığı cədvəldə bunu əks etdirir.

A.İsayeva əsərində medianın data ilə münasibətinin tarixinə də nəzər salır və bu tarixin ilk dönüşünü "1970-ci illərin əvvəllərində teletekst texnologiyası ilə baş verdiyini" bildirir. "Müasir mediada datanın yeri və əhəmiyyəti" adlandırdığı yarımbaşlıqda bu məsələlərə aydınlıq gətirir. Hazırda hər an inkişafda olan elmin, texnologiyanın sayəsində media artıq yalnız informasiya ötürməklə öz missiyasını bitmiş hesab etmir, o bu gün "sosial, mədəni və iqtisadi transformasiyanın əsas faktorlarından birinə çevrilib". Həqiqətən də, media bu gün həyatımıza o qədər sirayət edir ki, bəzən onsuz cəmiyyəti təsəvvür etmək çox çətindir. Media sistemində özünəməxsusluğu ilə seçilən TV hər an diqqət mərkəzindədir. Bunu gənc alim A.İsayeva əsərində dünya alimlərinin fikirlərinə istinad edərək bir daha diqqətə çatdırır. Sonda gənc yazarımıza daha böyük uğurlar arzulayıram!

**Sevil Həsənova,**
**Filologiya elmləri doktoru, professor**